*UOT 37.015.3*

***Günay Salman qızı Kazımova***
*Gəncə Dövlət Universitetinin dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0003-0034-6389*
*https://doi.org/10.69682/arti.2024.91(6).274-278*

***Xəyalə Namiq qızı Mustafayeva***
*Gəncə Dövlət Universitetinin müəllimi*
*https://orcid.org/0000-0003-0034-6389*

# ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİNİN PSİXOLOJİ-PEDAQOJİ ƏSASLARI

***Гюнай Салман гызы Кязимова***
*доцент Гянджинского Государственного Университета,*
*доктор философии по психологии*

***Хаяла Намиг гызы Мустафаева***
*преподаватель Гянджинского Государственного Университета*

# ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ

***Gunay Salman Kazimova***
*associate professor at Ganja State University,*
*doctor of philosophy in psychology*

***Khayala Namig Mustafayeva***
*teacher at Ganja State University*

# PSYCHOLOGICAL AND PEDAGOGICAL FUNDAMENTALS OF ECOLOGICAL EDUCATION OF STUDENTS

**Xülasə.** Məqalənin mövzusu şagirdlərin ekoloji tərbiyəsinin psixoloji-pedaqoji əsaslarını araşdırmaqdır. Məqalədə ekoloji tərbiyənin əhəmiyyəti, məqsədləri və bu prosesin həyata keçirilməsində psixoloji və pedaqoji yanaşmaların rolu vurğulanır. Müasir dövrdə ekoloji problemlərin artması səbəbindən gənc nəsildə ekoloji şüur və məsuliyyət hissinin formalaşdırılmasının zəruriliyi qeyd olunur.

Məqalədə müəlliflər ekoloji tərbiyənin şagirdlərin təfəkkürünün, emosional sferalarının və davranışlarının formalaşmasında təsirli bir vasitə olduğunu göstərir. Psixoloji aspektlərə gəldikdə, uşaqların yaş xüsusiyyətləri, idrak prosesləri və maraq dairələri nəzərə alınaraq ekoloji biliklərin aşılanması mühüm hesab edilir. Pedaqoji baxımdan isə tədris proqramlarının təbiətə hörmət və ekoloji mədəniyyətin formalaşdırılmasına yönəlməsinin vacibliyi vurğulanır.

***Açar sözlər:*** *psixoloji-pedaqoji əsaslar, ekoloji mədəniyyət, ətraf mühit, yaş xüsusiyyətləri, inteqrativ yanaşma*

**Аннотация.** Темой статьи является рассмотрение психолого-педагогических основ экологического воспитания учащихся. В статье подчеркиваются значение и цели экологического воспитания, а также роль психолого-педагогических подходов в реализации этого процесса. В связи с ростом экологических проблем в современное время отмечается необходимость формирования экологического сознания и чувства ответственности у молодого поколения.

В статье авторы показывают, что экологическое воспитание является эффективным средством формирования мышления, эмоциональной сферы и поведения учащихся. Что касается психологичес-

ких аспектов, то важным считается привитие экологических знаний с учетом возрастных особенностей детей, познавательных процессов и интересов. С педагогической точки зрения подчеркивается важность обучения программам бережного отношения к природе и формирования экологической культуры.

***Ключевые слова:*** *психолого-педагогические основы, экологическая культура, окружающая среда, возрастные особенности, интегративный подход*

**Abstract.** The topic of the article is to study the psychological and pedagogical foundations of environmental education of students. The article emphasizes the importance, goals of environmental education and the role of psychological and pedagogical approaches in the implementation of this process. Due to the increase in environmental problems in modern times, the need to form environmental awareness and a sense of responsibility in the younger generation is noted.

The authors of the article show that environmental education is an effective tool in the formation of students' thinking, emotional spheres and behavior. As for psychological aspects, it is considered important to instill environmental knowledge taking into account the age characteristics, cognitive processes and interests of children. From a pedagogical point of view, the importance of educational programs focusing on respect for nature and the formation of an ecological culture is emphasized.

***Keywords:*** *psychological-pedagogical foundations, ecological culture, environment, age characteristics, integrative approach*

Bugünkü dünyada ekoloji problemlər getdikcə daha ciddi və geniş əhatəli bir məsələyə çevrilməkdədir. Qlobal istiləşmə, təbii resursların tükənməsi, ətraf mühitin çirklənməsi və bioloji müxtəlifliyin azalması kimi məsələlər cəmiyyətin hər bir üzvünün bu problemlərə qarşı məsuliyyət daşımasını tələb edir. Bu səbəbdən, ekoloji tərbiyə cəmiyyətin bütün səviyyələrində, xüsusilə gənc nəslin, şagirdlərin təhsilində böyük əhəmiyyət kəsb edir. Ekoloji tərbiyə vasitəsilə şagirdlərə təbiətə qarşı hörmət və məsuliyyətli yanaşma öyrədilir, onların ekosistemin qorunmasına dair duyğu və davranışları formalaşdırılır.

Ekoloji tərbiyənin psixoloji əsaslarını araşdırmaq, şagirdlərin təbiətə qarşı münasibətlərini inkişaf etdirmək və ekoloji problemlər qarşısında onları daha məsuliyyətli və şüurlu fərdlər halına gətirmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu məqalədə, şagirdlərin ekoloji tərbiyəsinin psixoloji əsasları müxtəlif aspektlərdən təhlil ediləcəkdir.

Ekoloji tərbiyənin əsas məqsədlərindən biri şagirdlərdə təbiətə qarşı ekoloji şüurun inkişaf etdirilməsidir. Ekoloji şüur, təbiət və ətraf mühitin qorunmasının vacibliyini anlamaq və bununla əlaqədar olaraq, insanların təbiətə qarşı məsuliyyətli davranışlarını formalaşdırmaqla bağlıdır. Psixologiyada şüurun inkişafı əsasən təfəkkürün inkişafı ilə əlaqələndirilir. Bu inkişaf, uşaqlıq dövründən etibarən başlar və müxtəlif təcrübələr vasitəsilə genişlənir. Ekoloji tərbiyə də bu təcrübələrə əsaslanaraq şagirdlərdə təbiətə qarşı müsbət münasibətlər yaradır.

Ekoloji şüurun inkişafı təkcə intellektual səviyyədə deyil, həm də emosional təməl üzərində qurulmalıdır. Şagirdlərin təbiətə qarşı duyduğu sevgi, onun mühafizəsinə yönəlik motivasiyanı gücləndirir. Beləliklə, şagirdlərin təbiətə qarşı emosional bağlılığı onların davranışlarında konkret dəyişikliklərə səbəb ola bilər. Məsələn, bir şagird təbiətə qarşı müsbət duyğular bəslədikcə, ətraf mühitə zərər verməkdən qaçınacaq və təbiəti qorumaq üçün müxtəlif addımlar atmağa çalışacaqdır.

Ekoloji tərbiyə insanın mənəvi tərbiyə və mənəvi şüurunun tərkib hissəsidir. Mənəvi şüura malik olan insan özünü təbiətin bir parçası olduğunu bilir, bu parçanın qorunması öz sağlamlığının qorunması olduğunu yaxşı dərk edir.

"Müasir şəraitdə insan fəaliyyətinin nəticəsi olaraq, ətraf mühitin korlanması, yəni təbiətlə cəmiyyət arasındakı ekoloji tarazlığın pozulması insanın özü üçün təhlükəyə çevrilmişdir" [1, s. 8].

Amma, deyə bilərik ki, elmi-texniki inqilab bəşəriyyəti ekoloji mədəniyyət anlayışına hələ də yiyələndirə bilməmişdir. Bu da ondan irəli gəlir ki, cəmiyyətdə insanların ekoloji şüur və ekoloji mədəniyyətin formalaşdırılması bilavasitə mənəvi şüurla əlaqələndirilməli, bu insanın insanlıq halının bir tərkib hissəsi olmalıdır.

Dünya alimləri ilə yanaşı Azərbaycan alimləri də ekoloji anlayışlar, ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məsələləri ilə

bağlı əsərlər yazmış, ölkəmizdə insanlar arasında ekoloji mədəniyyətinin formalaşdırılmasına çalışmışlar. H. Əliyev, B. Budaqov, Q. Gül, Q.Məmmədov, M. Musayev, M. Xəlilov, Ə.Məmmədzadə, S. Rüstəmov, C. Mahmudov, V. Hacıyev kimi alimlər bu istiqamətdə xeyli işlər görmüşlər. Lakin, onların yazdıqları əsərlər yalnız intellektual şüura, mənəvi keyfiyyətli insanlara təsir etsə də, kütləviləşə bilməmişdir. Görünür ki, təhsil müəssisələrində, xüsusilə ümumtəhsil məktəblərində ekoloji mədəniyyətin tədrisinə və təbliğinə az diqqət yetirilmişdir.

Son dövrlərdə dövlət səviyyəsində ətraf mühitin qorunması və ekoloji mədəniyyətinin formalaşmasına xüsusi diqqət yetirilməyə başlanmış, ekologiya və Təbii sərvətlər Nazirliyi yaradılmış, təbiətin mühafizəsi ilə bağlı bir sıra dövlət qanunları qəbul edilmişdir.

Hər kəs bilməlidir ki, ekoloji mədəniyyətin inkişafı ilə mənəvi mədəniyyətin zənginləşməsi prosesi vəhdət təşkil edir. Kütləvi şəkildə ekoloji mədəniyyəti formalaşdırmaq üçün hələ kiçik yaş dövründə uşaqlar arasında mənəvi tərbiyə işi aparmaq zəruridir.

Kiçik yaşlı uşaqların hər bir hadisə və proseslərə daha həssas olmalarını, onların duyğu orqanlarının sürətlə inkişafını nəzərə alaraq ekoloji tərbiyə işi ibtidai təhsilin birinci sinfindən həyata keçirilməlidir.

İbtidai siniflərdə ”Həyat bilgisi” dərslərində şagirdlərin ekoloji davranışlarının formalaşdırılmasına, bu sahə üzrə ardıcıl olaraq biliklər əldə etmələrinə imkanlar yaradılır. Onlar birinci sinifdə ekoloji problemləri yaradan fəsadlarla tanış olur, müxtəlif təlim metodları ilə onların aradan qaldırılmasına cavab axtarmalı olurlar. İbtidai sinif şagirdləri mərhələli təlimlər nəticəsində insanların təbiətə nə kimi ziyan vurduqlarını anlayır, ona öz tənqidi münasibətlərini bildirirlər. “Həyat bilgisi” fənninin dərslərindən alınan müşahidələr” göstərir ki, “Təlim prosesi kiçikyaşlı məktəblilərdə ətraf aləmə məsuliyyətli münasibəti formalaşdırmağa imkan verir” [4, s.13].

Bu gün ibtidai sinifdə təhsil alan şagirdlər arasında gələcəyin alimləri, dövlət xadimləri, konstrukturlar, mühəndislər, həkimlər, müəllimlər və s. peşə sahibləri yetişir. Buna görə də onlara “Həyat bilgisi” fənni əsasında insanı əhatə edən bütün varlıqlar, mövcud olan həyati problemlər haqqında biliklər aşılanır. Bu bilikləri öyrətməkdə əsas məqsəd ölkəmizin kiçikyaşlı vətəndaşlarını bəşəriyyətin davamlı inkişafı fonunda mövcud ekoloji problemlərlə tanış etmək və onların həlli yolları üzərində düşünməyə sövq etmək və bu əsasda milli mənəvi şüur formalaşdırmaqdır.

Bəşəriyyətin təhlükəsizləşdirilməsi insanların ekoloji mədəniyyətə yiyələnməsindən çox asılıdır. Dünyada uşaqdan böyüyə qədər hər bir kəs özlərinin yaratdıqları ekoloji problemin bütün bəşəriyyət üçün yarada biləcəyi təhlükəni şüurlu şəkildə dərk etməlidir.

İnsanlar ekoloji problemlərə aid məlumatları təkcə bilik almaq xatirinə deyil, onları həyat fəaliyyəti prosesinə tətbiq etməlidir. Lakin, aparılan araşdırmalar göstərir ki, eyni ekoloji mühitdə yaşayan və eyni sosial təbəqəyə malik olan insanların təbiətə münasibətləri eyni deyildir. Buna görə də təbiətin qorunmasına münasibət kütləvi deyil, fərdi xarakter daşıyır.

Əksinə olaraq təbiətin çirkləndirilməsi faktları daha geniş miqyaslıdır. Elə bu səbəbdən də ekoloji problemlərin qloballaşması daha da artır. Ətraf mühitin ekoloji vəziyyəti məişət mədəniyyətinin səviyyəsi ilə də əlaqədardır. Məişətin ekoloji vəziyyəti həm yaşayış obyektlərinin ekoloji vəziyyəti ilə, həm də insanların özlərinin davranış mədəniyyətilə vəhdət təşkil edir.

Əgər yaşayış obyektinə atılmış tullantılar vaxtında təmizlənmirsə və eyni zamanda insanlar belə hallara biganə yanaşaraq həmin ərazini təmizləmək əvəzinə məişət tullantılarını davamlı şəkildə həmin obyektlərə atırlarsa bu proses insanların özləri üçün bir sıra fəsadlar yaradır. Müşahidələr göstərir ki, ayrı-ayrı regionlarda yaşayan əhali məişət tullantılarını çay və göl kənarına, yolların ətrafının və s. yerlərə atmaqla özlərinin ekoloji mühitini korlayırlar. Bu da nəticədə ətrafda yaşayan bütün canlı varlıqların sağlamlıq durumuna öz mənfi təsirini göstərir.

Qeyd olunan bu vəziyyət regionlarda təhsilin hansı səviyyədə olduğunu qiymətləndirmək imkanı yaradır. Belə çıxır ki, dövlət tərəfindən hər bir vətəndaşa təhsil almaq hüququ verilir, müasir tələblərə cavab verə biləcək məktəblər tikilib istifadəyə verilir.

Orta məktəblərdə dərsliklər şagirdlərə pulsuz paylanılır. Lakin, tədrisin səmərəli və keyfiyyətli təşkilinə cavabdeh olan müəllimlər öz vəzifələrinin öhdəsindən lazımınca gəlmirlər. Beləliklə də təhsildə davamlı insan inkişafı modelinə əməl olunmur. Şagirdlərlə aparılan tə-

limlər onların ekoloji mədəniyyətinin inkişafına praktiki təsirini göstərə bilmir.

Aparılan tədqiqatlar göstərir ki, "Daha yaxşı yaşamağa çalışan insanların öz məişət şəraitini zənginləşdirmək tələbatı, getdikcə adamların ətraf mühiti qorumaq, təbiətin çirklənməsinin qarşısını almaq, tükənməkdə olan bəzi təbii sərvətləri gələcək nəsillər üçün mühafizə etmək borcunu üstələyir ki, bu da yeni – yeni ekoloji gərginliklərə səbəb olmaqdadır" [5,s.195].

Xüsusilə qeyri-standart xarakter daşıyan dərs-ekskursiyalar vasitəsilə kiçik sinif şagirdləri təbiətlə daha yaxından təmasda olur, onun bütün tərəflərinə xas olan xüsusiyyətləri daha asanlıqla mənimsəyə bilirlər.

Qeyri-standart dərslərdə duyğu orqanları kompleks şəkildə idrakın inkişafına təkan verir, şagirddə təbiət haqqında rasional baxışlar sistemi formalaşdırır. Təcrübə göstərir ki, ekoloji tərbiyə prosesində dərs-ekskursiyaların aşağıdakı iki növündən daha geniş istifadə olunur: Bunlardan biri qiyabi ekskursiya adlanır. Qiyabi ekskursiya təlim diafilmlər, şəkillər xəritələr, multimediya və s. vasitələrlə keçirilir. İkinci isə kompleks ekskursiyalardır. Kompleks təlim ekskursiyalar zamanı şagirdlər bir başa təbiətlə təmasda olur, meşələrə, parklara, çay və göl kənarlarına, təbiətin ecazkar guşələrinə gəzintilər təşkil edirlər.

Kompleks ekskursiyalar şagirdləri praktik olaraq ekoloji vəziyyətlərlə tanış edir, onların şüurlu şəkildə təbiətin müşahidəsinə maraq göstərmələrinə imkan yaradır. Çox zaman kompleks ekskursiyalar başa çatdıqdan sonra şagirdlər gördüklərini illüstrasiya şəklində təsvir edir, ziyarət etdikləri təbii məkanlar haqqında fikirlərini söyləyirlər. Eyni zamanda onlar təbiətin qorunmasına aid kiçik layihələr hazırlayırlar.

Təbiət qoynuna ekskursiyalar şagirdlər arasında daha səmimi münasibətlər yaradır, onların dostlaşmasına, bir sıra problemlərin həllində birgə fəaliyyət göstərmələrinə səbəb olur. Həmçinin şagirdlər ətraf aləmdə mövcud olan problemlərlə əyani şəkildə tanış olduqda təbii sərvətlərdən düzgün istifadə etmək vərdişlərinə də yiyələnirlər [2, s. 37].

Ümumiyyətlə, tərbiyə prosesində insanın mənəvi keyfiyyətlərinin, təfəkkürünün, qabiliyyət və vərdişlərinin inkişafına kömək edə biləcək hər bir təlim vasitələrini müsbət qiymətləndirib onlardan istifadə etmək lazımdır. Müxtəlif təlim vasitələrinin inteqrasiyası olmadan cəmiyyətə yararlı olan kamil şəxsiyyətin formalaşdırılması mümkün deyildir.

Müəllim çalışmalıdır ki, şagirdin idrakı inkişafında ləngimə prosesi baş verməsin. Bu ləngimə insana yaşadığı təbiəti dərk edib qavramaqda da çətinliklər yaradır. Belə insanlar cəmiyyətdə yüksək mövqelərə çatmağa nail olsalar da yalnız şəxsi mənafeyinə uyğun olaraq fəaliyyət göstərir. O, adi bir obyekt yaratmaq üçün təbiətin ağciyəri olan yaşıllıqları məhv edir, meşələr qırılır, insanın yaşaması və istehsal fəaliyyəti üçün zəruri olan torpaq yararsız hala salınır:

"Təbiətin tərbiyəvi əhəmiyyəti onun insana yaxşı mənəvi təsir göstərməsindədir. Təbiətlə ünsiyyət uşaqların hərtərəfli inkişafına kömək edir. Uşağa düzgün tərbiyə verdikdə o təbiəti sevir, getdikcə təbiətə məhəbbət hissi vətənə məhəbbət hissinə çevrilir. Təbiətin gözəlliyi insanlarda könül xoşluğu yaradır. Təbiət insanda yüksək empatiyalar yaradır".

Təbiət bütün canlıların, bitkilərin həyat mənbəyidir. Torpaq, su, hava, istilik təbiətin əsas komponentləridir. Bu dörd komponent bir-biri ilə vəhdət təşkil edir. Onların hər hansı biri dağıntıya, çirklənməyə və s. təsirlərə məruz qaldıqda ekoloji problemlər yaranır:

"Ekoloji problemlərin xarakterinə uyğun olaraq ətraf aləmdə canlılar üçün bir çox təhlükələr meydana gəlir, daşqınlar, yaxud meşə ərazilərində yanğınlar baş verir. Bu təbii fəlakətlər flora və faunanın keyfiyyət dəyişmələrinə səbəb olur, bir çox canlıların nəsli kəsilir, bitgi örtüyü dağılır. Elə təkcə Azərbaycan Respublikasının faunasına aid olan 97 növ məməlilərin 14 növü, 357 quş növünün 36 növü, balıqların 100-ə yaxın növlərindən 5 növü, suda-quruda yaşayanların və sürünənlərin 172 növündən 13 növü, həşəratların isə 15 minə yaxın növündən 40 növü "Qırmızı kitab"a daxil edilmişdir"

Bu da ondan irəli gəlir ki, insanların müdaxiləsi, təbii varlıqlarla düzgün davranmaması nəticəsində belə hallar baş verir. Buna görə də hələ ibtidai təhsil pilləsində şagirdlər flora və faunada yaranmış ekoloji problemlərin mahiyyətini öyrənməli və təbiət və cəmiyyətdə baş verən hadisələri ekoloji baxımdan təhlil etməli, bu hadisələrin bir-birindən asılılığını öyrənməlidirlər.

**Problemin aktuallığı.** Davamlı inkişafın təmin olunması, şagirdlərin təlim-tərbiyəsində ekoloji biliklərin çatdırılması üçün psixoloji-pedaqoji yanaş-

manın əsas olması, şagirdlərin ətraf mühitə münasibətində pozitiv dəyərlərin inkişafı yalnız biliklərin çatdırılması ilə deyil, həm də emosional və mənəvi təsir vasitəsilə mümkün olması, ekoloji davranış və münasibətlərin formalaşdırılmasına kömək edəcək yanaşmaları təqdim edə bilər.

**Problemin elmi yeniliyi**. Məqalədə şagirdlərdə ekoloji dəyərlərin formalaşdırılmasında emosional təsirin, rəqəmsal resurslar, virtual reallıq, multimedia vasitələri və digər texnologiyaların ekoloji tərbiyədə rolu təqdim edilmişdir

**Problemin tətbiqi əhəmiyyəti.** Nəticə olaraq qeyd etmək lazımdır ki, ekoloji mədəniyyətin formalaşdırılması prosesində şagirdlərin marağına səbəb ola biləcək hər bir vasitə və metodun öz əhəmiyyəti vardır. Sadəcə olaraq şagird də, müəllim də ümumi mədəniyyətin tərkib hissəsi olan ekoloji mədəniyyətin insanın təbiətə münasibətinin göstəricisi olduğunu şüurlu şəkildə dərk etməlidir.

**Ədəbiyyat:**


1. Əliyev A. Ekoloji tərbiyə və təbiətə münasibətin formalaşması.-Bakı: Təhsil, -2008,- 84 s.
2. Hüseynova S. Uşaqların ekoloji tərbiyəsində pedaqoji üsullar. -Bakı: Elm və Təhsil,- 2012, -87 s.
3. Xəlilov T.A., Zeynalova M.Ə. Qlobal ekoloji problemlər: Ali məktəblər üçün dərs vəsaiti. -Bakı, “MBM, -2013,-212 s.
4. İsmayılov F. Təhsil prosesində ekoloji mədəniyyətin inkişafı. -Bakı: Təhsil,- 2010,-126 s
5. Qurbanov R. Məktəblilərin ekoloji tərbiyəsində müasir yanaşmalar. -Bakı: Maarif, -2015,-185 s.
6. Məmmədova G. Şagirdlərin ekoloji dəyərlərinin formalaşmasında layihə əsaslı təlim. -Bakı: Tədris. -2019,-231 s.
7. Vygotsky L. S. Mind in Society: The Development of Higher Psychological Processes. -Cambridge, MA: Harvard University Press. -1978, -26 s.


**E-mail:**gunaykazimova55@gmail.com
**Redaksiyaya daxil olub:** 27.11.2024.